# Vətən, sənə sualım var

Mənə elə gəlir ki, hər yazının da bəxt payı var. Üzünə açıq olan, mənasının mahiyyətinə haracan desən, vaqif ola bildiyin yazılar var ki, elə başında dolana-dolana qalır. Pərvanə özünü oda yandıran kimi, fikirlər, düşüncələr xəyalın əlçatmaz ucalıqlarında əriyib gedir. Belə yazıları elə dolmuş buluda bənzədirəm ki, ha dolmuş olsun belə, yenə yağa bilmir. Amma yazılar da var...

Fərqanə Səfərlini tanımıram. Ara-sıra sosial şəbəkələrdə, yaxud haradasa imzası gözümə dəyib. Və hər dəfə də onun imzasını görəndə ünlü şairimiz, insanlığa sevgi dolu bir ömür yaşayıb və yaşadığı ömrü də başa varmamış dünyadan köçən Fərqanə yadıma düşür. O Fərqanə ki, ürəyi titrədən bircə misranı oxuyanda gözləri dolurdu, kövrəlirdi.

Fərqanə Səfərlinin yazılarının çapına "Kredo" qəzetində, desəm ki, qorxa-qorxa razılıq verdim, mənə inanın. Axı burada Fərqanə adı var. Amma gəncliyini, bəlkə də hələ sözdə bərkiməmiş fikir addımlarının sərrastlığını görəndə bir yeni Fərqanənin də ədəbi dünyamıza ayaq açmağına inandım.

Onun yazılarında fikir toqquşmaları, təzadların qarşılaşması poetik mənzərə yaradır. Elə bil ki, müəllif həyatdan gördüyü ağlı-qaralı rəngləri ruhuna, təbiətinə yığır və bu tərəfləri savaşa sövq edir. Və o savaşın içindən çıxan düşüncələri yazıya gətirir. Bəlkə də bu qeydləri yazmağa çətinlik çəkəcəkdim. Axı pərvanənin, ümumiyyətlə, yaradıcılığı haqqında əhatəli bilgim yoxdur. Hansı kitabı çap olunub, yazıları haqqında fikir deyilibmi, deyilməyibmi - bunları bilmirəm. Amma əlimdə bir neçə şeiri var və hiss edirəm ki, bu şeirlər varlığımı danışdırmaq gücündədir. Onu deyirdim axı, bəlkə də yazmaq çətin olardı, əgər onun "Vətən, sənə sualım var" adlı şeirini oxumasaydım. Mənə elə gəlir ki, təkcə elə bu başlığa çıxarılmış misranın özü çox şey deyir. Əlbəttə, ilk baxışdan düşünmək olar ki, o, vətəndən haqlı-haqsız təmənnalar umacaq, vətəndən umduqlarına əli yetmədiyi üçün vətəni dara çəkmək istəyəcək. Xəyalında olsa belə, onu edama sürükləyəcək. Elə bil ki, yaman borclu kimi üzə duracaq. Amma belə olmadı.

Bəli, sən demə, sual vətənə ünvanlasa da, onun ittiham olunan tərəfi lirik "mən"in özüdür. Axı biz öyrənmişik, haqqımız çatdı-çatmadı elə nəyisə tələb edək. Bir özümüzü də divana çəkməyimizin, vətənin başına gələnlərdə günahımızın qədərini görməyə çalışmışıqmı? Kim bu haqq-hesabda məntiqinin nəyə qadir olduğunu görmək istəyirsə, Fərqanənin bu şeirini oxusun.

Hələlik bircə bənd:

Vətən, niyə sənə giley- güzarlı,
Sevgiylə sarılmaq öyrəndik ancaq?
Niyə göz açandan həsrət-haraylı,
Sinəni qan yudu bələndik ancaq?

Müəllif sözü o qədər dəqiq, ritorik tələbin mahiyyətinə uyğun ölçü-biçiyə gətirir ki, sanki demək istədiklərinin hamısını misraların içərisinə yığıb, daha bundan o yana deyiləsi heç nə qalmayıb. Deməк, müəllifi narahat edən budur ki, vətənə sevgi ilə sarılmaq o qədər də böyük fədakarlıq deyil. Hələ üstəlik bu sevgi ilə sarılmağın minnətini də vətənin boynuna qoyub ondan giley-güzar edirik. Müəllifin ifadələri bəzən elə qəribəliklə mənə yükü götürür ki, üzərində düşünməli olursan. Söz yox, vətənlə bağlı həsrət, haray, yanğı motivləri həmişə var. Bəlkə də şairlər üçün artıq bu tipli yanğılar adiləşib. Əgər şairin özü üçün bu cür adiləşmə varsa, onda elə oxucu üçün də var. Amma Fərqanədə bu bir qədər fərqlidir. Vətənin sinəsini qan yuyur və biz bu qana bələnirik. Əslinə qalsa, vətənin qanına bələnməklə guya vətənin qınağından çıxırıq, amma Fərqanə bununla barışmır. Demək, vətənin sinəsini yuyan qana bələnmək hələ vətənin dərdinə çarə deyil. Vətəndaşın özünü ovutmağıdır. Amma Fərqanənin tələbində vətənin arzusunu, istəyini kamına yetirməklə onun dərdinə çarə eləmək olar. Beləliklə, Fərqanə ritorik sualları ilə vətənlə üzbəüz qalır. Elə bil ki, cavabını tapmadığı sualların mahiyyətini vətənin kitab sinəsindən oxumaq istəyir. Şübhəsiz, bu sinə - bu kitab dərd və ağrı yükü ilə doludur. Zənnimizcə, müəllifin narahatlığını başa düşmək olar, axı bu vətənin də, bu torpağın da qeyri məmləkətlər kimi sinəsi güllü-çiçəkli ola bilərdi. Nəinki xarabalıqlarla bəzənmiş acı görkəmi:



Niyə sən də rahat güllü - çiçəkli,
Niyə biz firavan həyat görmədik?
Niyə tarix boyu dosta, qardaşa,
Arxayın, ürəklə xalı sərmədik?!

Burada mübahisəli məqamlar da var, ancaq mənə elə gəlir ki, bu mübahisələr üz qabıqdadır. Müəllif deyir ki, tarix boyu dosta-qardaşa arxayın ürəklə xalı sərmədik. Amma dostun-qardaşın da gərək təbiəti insanlıq qanunlarına uyğun qurulsun.

İran hədələnirdi. İranın dağıdıcı silahlarla diz çökdürmək planları vardı. Amma Azərbaycan buna qol qoymadı. Azərbaycan həqiqəti bundan ibarət idi ki, İran bizim dost-qardaş ölkəmizdi. Yarısı ilə dil-din, digər yarısı ilə də din birliyimiz vardı. Güvəncimiz bu qarşılıqlı birlik, tarixi-mədəni qovuşuq əlaqələr idi. Amma 44 günlük müharibədə İranın hansı siyasi-hərbi oyunlardan keçdiyini, hansı riyakarlıqlarla nələr törətdiyi görmək, müşahidə etmək bizə nəsib oldu. Fərqanə suallarını vətənə versə də, əslində dost-qardaş bildiyimizi ittiham edir. Onun namərd təbiətini açıb göstərir. Doğrudur, dost-qardaş bildiklərimizin xəyanətinə həqiqi qardaşın mənəvi mühitini aid edə bilmərik. Türkiyə Azərbaycanın haqq işini Azərbaycan istiqlalından bəri ardıcıl olaraq qoruyub, müdafiə edib.

Suallar elə maraqlı, elə qəribə əhvalla qoyulur ki, müəllifin poetik imkanı istər-istəməz ruhumuza xoş ovqat gətirir. Nə qədər sualların içərisində kədər əhvalı axına çevrilmiş olsa da. Necə maraqlıdır - deyir ki, ay vətən, axı sən başı bəlalı olmayan torpağın ola bilərdin. Axı vətən torpağındır. Ən böyük sahibkar torpaqdır. Bu, Fərqanənin özünün yanaşmasıdır. Bəlkə də başqası vətəni sahibkar, torpağı mülk hesab edərdi. Onun düşüncəsinə, özü də doğru düşüncəsinə görə bu torpağın olan vətənin sinəsinin anaları gərək bəxtəvər olaydı. Onların sinələrinə dağ çəkilməyəydi. Söz yox, Fərqanə bu yanaşması ilə Azərbaycan oğullarının şəhidliyini daha da ucaldır. Anaların müqəddəsliyini diqqətə çəkir. Sinəsi yaralı vətəndə elə ananın da sinəsi yaralı olar.

Fərqanəni ağırdan elə motivlər də var ki, burada onu daha geniş açıqlamağa lüzum görmürəm. Elə qısaca onu deyirəm ki, belə bir vətənin sinəsində doğulmuş olanlar var ki, yad əllərin havasına oynayır. Vətənə doğma övlad ola bilmir:

Niyə baş bəlalı torpağım oldun?
Niyə anaların bəxtəvər deyil?
Niyə sənin olan hissəbəhissə,
Sənə "Ana Vətən" deyənin deyil?

Fərqanə təəssüflə, yanğı ilə hər "Ana vətən" deyəni də vətənin övladı bilmir. Görünür, vətəni sevməyin də nisbi fərqləri var. Kimisi onun dərdini daşıyır, bəlasını çəkir. Kimisi də maddiyyat donunda ondan haqqını istəyir. Əlbəttə, bunlar fərqli yanaşmalardır. Və bəlkə də Fərqanənin özü də bu şeirini elə bu fərqli yanaşmaların ortaya çıxması üçün qələmə alıb. Başqa sözlə insanlara həqiqəti çatdırmağı özünün şair missiyası hesab edir. Axı, Fərqanə çox istəyərdi ki, tarixin qapıları açılıb, xalqlar azadlığına qovuşanda Azərbaycan da öz haqqına çataydı. Kimsə onun torpaqlarına göz dikməyəydi. Axı Qarabağ tarixi taleyi ilə bütövlükdə Azərbaycandır. Hələ bu azmış kimi başqaları da Azərbaycandan yağlı tikələr qoparmaq niyyətindədir. Və bütün bunların hamısı Fərqanəni dilləndirən, danışdıran dərdlərdir:

Niyə daş üzünə oğul adları,
Niyə haqq sözünə ağı yazılıb?
Niyə çənbərimiz halqası qırıq,
Tamlığın pozana dığa yazilib?

Şübhəsiz, Fərqanənin düşmənlərin kimliyi haqqında kifayət qədər anlamı var, erməni vandallarının əməlləri haqqında kifayət qədər bilgilidir. Zənnimcə, Fərqanənin bu şeiri çox həyatidir və dünyanın harasında yaşamağından asılı olmayaraq, hər bir azərbaycanlını düşündürəcək gücdədir. Yaxşı-yamanın fərqini bilməyənin ölçüsü də, meyarı da düzgün olmaz. Bir ovuc erməni faşistlərinin az qala dünyanın siyasi düzəninə öz məramlarına uyğun nizam vermək iddiaları var. Onlar həqiqətləri çox ustalıqla təhrif edə bilirlər. Bütün bunların hamısının fonunda şairin düşüncələrini sarmış suallar bitib tükənən deyil. Amma onu da yaxşı bilir ki, o bu sualların cavabını hətta istəməsə belə yenə vətəndən gözləyir. O vətəndən ki, onun xilası ona sahib çıxan, onun gücünü diktə edən Azərbaycan ordusunun əlindədir.

Fərqanə şeirinin sonluğunda suallarını bir az kəskinləşdirir:

Vətən, anam Vətən, suallarım çox?!
Bunu səndən başqa soracağım yox.
Bizə ən doğrunu anamız deyər,
Başqa bir ərk ilə duyacağım yox.

Nə qədər həssas, nə qədər duyğusal yanaşmadır. Axı kim adama həyatı qədər vacib olan sualların doğru cavabını verər? Belə cavabı müəllif doğru deyib ki, ancaq anadan gözləmək olar. Vətəni ana bildiyi üçün övlad duyğusallığı ilə suallarını anasına, ana vətəninə yönəlik tutmaqda Fərqanənin haqqı var.

Əlbəttə, bu sualların hər biri bir kitablıq, bir dönəmlik yolun açımına xidmət edəcək işığa bərabərdir.

Fərqanənin şeirlərinin maraqlı xüsusiyyəti var. O, şeirlərinə sərlövhə yazmağı, deyəsən, xoşlamır. Amma bütün şeirlərinin müraciət tipi var. O, öz müraciətlərində sanki həyatdan ala bilmədiyi cavabları dostundan, doğmasından, lap elə ruhundan, bəlkə də tanrının özündən gözləyir. Onun "Suyun da bir yaddaşı var deyiblər, Su üzündə yazı yazmış mələklər, Su paklıqdır, bəlkə dua ediblər, Bir gün savab, bir gün günah fələklər" misraları ilə başlayan şeirində də qarşılaşan tərəflər var. O, həyatını nağıl kimi çözür. Sanki ömrünün nağıl olan aləminə işıq tutur. Elə bu nağılın işığında da həyatının qaranlıq tərəflərinə nəzər yetirir. Yaxud başqa bir şeirindən maraqlı bir məqam: "Səni qucaqlayıb sıxanda qorxun, Sevinci tanrının üzündən tanı". Yaxşıdır, o qədər yaxşıdır ki, Allahın özü də tale, həyat yolunda məsuliyyət daşıyan insanın bu hissindən məmnundur.

Payızda çəməndən gül uman hanı,
Çoxdan bəslədiyin, sis, dumsan hanı?
Dosta yaşadığın o güman hanı,
Gümanı həyatın özündən tanı.

Demək, onun düşüncəsinə görə bütün sualların cavabı həyatdadır. Əgər həyatı gözübağlı keçməsən onda bu həyatdan aldığın bilgilər, təcrübə sənə kifayət qədər yol açacaq.

Fərqanə Səfərlinin "Tanrım, sözüm vardı sənə" misrası ilə başlayan bir münacatı var. Ümumiyyətlə, Azərbaycan ədəbiyyatında, eləcə də Şərq düşüncəsində Dədə Qorquddan üzü bəri, Nizamidən belə Allaha müraciətlər var, bu müraciətlərin hamısında Allah qüdrətli, güclü hesab olunur. Hər bir müəllif həm həyatı yaşaya bilmək, həm də sözünü demək üçün Allahdan kömək diləyir. Fərqanə də bu şeirində tanrıya müraciət edərək onunla dilləşir. Özü demiş heç Allahdan bir minnəti yoxdur. Sadəcə onunla söhbətləşmək istəyir.

Tanrım, sözüm vardır sənə,
Giley deyil, söhbət kimi.
Arzuları bol-bol çin et,
Günah deyil, savab kimi.
Ümid mələkləri uçur,
Elə daim başımızda,
Doğruları özün çıxar
Ədalətlə qarşımıza.
Təəccübümüz səninlədir,
Həm çətini, həm asanı.
Hədəfini sən itirmə,
Nəinki bir yarasanın.
Nəfəsindən ruh yaradıb,
Bizə "bizlik" gətirmisən.
Sən ilahsan insanlara,
İman, düzlük yetirmisən.
Yapışmışıq ətəyindən,
Süzük etmə parçamızı.
Tanrım, eşit qəlb evindən,
Niyyətləri, duamızı...

Bir sözlə, həyatın yaranmasında o, tanrını başlanğıc hesab edir. Zənnimcə, bu başlanğıc Allahın qüdrəti ilə hələ başa çatmadığı düşüncəsindədir müəllif. Əgər bu yaradılış başa çatmış olsaydı, onda daha tanrıdan kömək ummağa dəyməzdi, yəni tanrı daha öz işini görüb qurtarıb. Amma Fərqanə sözünün canında dünyanı nizamda saxlamaq üçün tanrıdan təmənna var. Yenə də şair qəlbinin genişliyi mətnə kifayət qədər aydınlıq bəxş edir.

Fərqanənin digər maraqlı şeirləri də var ki, yenə onun həyatla, cəmiyyətlə, insanlarla bağlı üzüntüləri üzə çıxır. Adi bir kibrit qutusu, yanan bir çöpün daşıdığı mahiyyət də onun üçün xüsusi məna kəsb edir:

Qutusu üstündə qeydlər olur,
Kimi zaman yazır, kimi ad yazır.
Kibritin qisməti təzadlı yoldu,
Adına yanmağı, sönməyi yazır.

Bütün bu şeirlərin hamısının oxusundan sonra belə bir düşüncə qənaətimizi sona çatdırır. Ədəbiyyatımıza təzə Fərqanə gəlir.

*Əli Rza* Xələfli
*16.11.2022*